## Qaçaqmalçılıq vergilərdən yayınmağa şərait yaradır

*Nüfuzlu xarici şirkətlərin araşdırmalarına əsasən, dünyada il ərzində qaçaq məhsulların satışı nəticəsində milyardlarla dollar vəsait dövriyyədən kənarda qalır.*

Dünyanın informasiya-kommunikasiya texnologiyaları üzrə nəhəng şirkətləri olan «Microsoft», «HP», «Keystone Strategy», «BSA Software Alliance» və digər qurumlar kompüter xidmətlərindən və internet resurslarından istifadə zamanı piratçılıq hallarının vəziyyətinə dair birgə araşdırmaların nəticələrini açıqlayıblar. ABŞ-ın «The American Assamly» şirkətinin mütəxəssisləri isə dünyada pirat məhsulların ticarəti, bu qeyri-leqal kommersiya əməliyyatlarının iqtisadiyyata vurduğu zərbə, bu sahədə müxtəlif ölkələr tərəfindən həyata keçirilən mübarizə tədbirlərinin təsiri və digər faktorlarla əlaqədar aparılan tədqiqatların yekununa dair faktları təqdim ediblər. Araşdırmalar zamanı məlum olub ki, son illər dünya miqyasında İKT-nin əhatə dairəsinin genişlənməsi internet vasitəsilə həyata keçirilən qeyri-qanuni ticarətin artmasına da təkan verib. Genişzolaqlı internetin cəmiyyətin həyatına sürətlə daxil olması sayəsində bu təhlükə daha da ciddiləşib, həmin fəaliyyətə cəlb olunan cinayətkarların sayı isə minlərlədir. Bu gün kompüter piratçılığı ən böyük qlobal problemlərdən birinə çevrilib. Problem ondan ibarətdir ki, istifadəçilər piratların müxtəlif kodlarla nəyi dəyişdiyini, hansı əməliyyatları apardığını görə bilmir, nəticədə milyonlarla insan bu cinayətkar qrupların hədəfinə çevrilir.

*İKT sektoruna ciddi zərbə*

Hazırda qaçaq malların ticarətinə qarşı beynəlxalq miqyasda mübarizə ən aktual məsələlərdən biridir. Araşdırmalar göstərir ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, İnterpol, Beynəlxalq Ticarət Markaları Assosiasiyası, Beynəlxalq Ticarət Palatası kimi nüfuzlu təşkilatlar, eləcə də müxtəlif ölkələrin müvafiq dövlət orqanları və ictimai qurumları qaçaq məhsulların satışına qarşı ardıcıl və sistemli mübarizə tədbirləri gördüklərinə baxmayaraq, bu sahədə hələ də ciddi problemlər qalmaqdadır.

Qaçaqmalçılıq İKT sektoru ilə yanaşı, elm və təhsilə ciddi zərər vurur, yaradıcı insanların və yeni kəşflərin, əsərlərin müəllifi olan şəxslərin və elmi qurumların hüquqlarının pozulmasına səbəb olur, istehlakçıların həyat və sağlamlığına böyük təhlükə yaradır.

*Vergi münasibətlərinin pozulması*

Qaçaq ticarətin ən böyük təsirlərindən biri vergi sistemində özünü göstərir. Pirat və saxta malların geniş satış dövriyyəsi milli iqtisadiyyatları vergilərdən əldə edilən mühüm gəlirlərdən məhrum edir. Bir çox ölkələrdə bu cür məhsulların satışından il ərzində külli miqdarda vəsait dövriyyədən kənarda qalır, nəticədə dövlət böyük həcmdə vergiləri itirir. Beynəlxalq Ticarət Palatasının ekspertlərinin araşdırmalarına görə, hazırda dünyada pirat məhsulların illik dövriyyəsinin həcmi saxta dərman preparatları və səhiyyə məhsullarından sonra əsas yerlərdən birini tutur. Ona görə də bu gün pirat mallarla mübarizə qeyri-qanuni tibbi ləvazimatlar, uşaq oyuncaqları, şəxsi gigiyena məhsullarına qarşı mübarizə qədər qlobal mahiyyət kəsb edir. Beynəlxalq miqyasda piratçılıqla mübarizə transmilli mütəşəkkil cinayətkar qruplarla mübarizə kimi starteji yer tutur.

*İşgüzar rəqabət üçün əngəl*

Araşdırmalara görə, dünyada il ərzində lisenziyasız həyata keçirilən kommersiya əməliyyatlarının dövriyyəsi 59 milyard dollar təşkil edir. Son 2 ildə piratçılığa qarşı mübarizənin dünya səviyyəsində gücləndirilməsinə baxmayaraq, bu sahədə yenə də artım halları baş verib və qaçaq məhsulların dünya üzrə dövriyyəsi 42%-ə çatıb. Kompüter piratçılığının səviyyəsi isə 47% təşkil edir. Piratçılığın səviyyəsinin ən aşağı olduğu ölkələrə ABŞ (20%), Yaponiya (20%), Lüksemburq (20%), Yeni Zelandiya (22%), Avstraliya (24%), Avstriya (24%), İsves (25%), Belçika (25%), Finlandiya (25%), İsveçrə (26%) aiddir. Piratçılığın səviyyəsinin ən yüksək olduğu ölkələrə isə Gürcüstan (93%), Zimbabve (91%), Banqladeş (90%), Belarus (88%), Azərbaycan (88%) və digər ölkələr misal göstərilir.

Göründüyü kimi, ölkələrin birində az, digərində çox olmaqla, piratçılığın dünyada geniş yayılması işgüzar mühitə mənfi təsir göstərir və rəqabəti zəifləddir. Məsələn, Çində iri şirkətlər bu cür halların baş verməsi nəticəsində ildə 837 milyon dollardan çox, Hindistanda 500 milyon dollar vəsait itirirlər. Braziliyada bu rəqəm 186 milyon, Rusiyada 115 milyon dollar təşkil edir.

*Azərbaycan mübarizəni gücləndirir*

Respublikamızda son illər piratçılıqla mübarizə tədbirləri gücləndirilsə də, bu sahədə problemlər qalmaqdadır. İstehlakçıya saxta məhsulların satılması sayəsində milyonlarla manat vəsait dövriyyədən kənarda qalır, böyük məbləğdə vergilər dövlət büdcəsindən gizlədilir.

Məhz buna görə də Vergilər Nazirliyi son illər bu istiqamətdə apardığı mübarizə tədbirlərini daha da gücləndirib. Nazirliklə yanaşı, müxtəlif dövlət orqanlarının apardığı birgə tədbirlər sayəsində hər il yüz minlərlə manat dəyərində müxtəlif qaçaq malların satışının qarşısı alınır, bu qeyri-qanuni ticarətlə məşğul olan şəxslər barəsində ciddi cəza tədbirləri görülür. Son illər həyata keçirilən operativ nəzarət tədbirləri və səyyar vergi yoxlamaları nəticəsində Bakı şəhərinin bir sıra audio-video disk satışı obyektlərində mənşəyi və istehsal yeri məlum olmayan, dəyəri yüz min manatlarla ölçülən CD və DVD diskləri aşkarlanaraq satışdan çıxarılıb. Təkcə fevralın 23-də Vergilər Nazirliyinin Vergi Auditi Departamenti tərəfindən Bakı şəhərinin bir sıra audio-video disk satışı obyektlərində həyata keçirilmiş səyyar vergi yoxlamaları zamanı ümumilikdə 247704 ədəd CD və DVD diskləri aşkar olunub, onların 146621 ədədinin holoqramsız olduğu müəyyən edilib. Ümumi dəyəri 202.802 manat olan holoqramsız CD və DVD-lər satışdan çıxarılıb.

Onu da qeyd edək ki, bu sahədə aparılan mübarizə tədbirlərində istehlakçıların da üzərinə böyük vəzifə düşür. Onlar satış məntəqələrindən audio-vizual və video məhsulları alarkən diqqətli olmalı, bu malların üzərində istehsalçı barədə müvafiq məlumatların olmasına diqqət yetirməli, saxta məhsullar barəsində Vergilər Nazirliyinə və ya digər aidiyyəti qurumlara məlumat verməlidirlər. Məhz bu halda aparılan tədbirlərin daha böyük təsiri ola bilər.

Elbrus CƏFƏRLİ